# Silahlı Qüvvələr Günü qeyd olunub

İyunun 23-də Fövqəladə Hallar Nazirliyi işçiləri Həmkarlar İttifaqının təşkilatçılığı ilə 26 İyun—Azərbaycan Respublikası Silahlı Qüvvələr Günü münasibətilə FHN-nin Mülki müdafiə qoşunlarının Qəbələ rayonunda yerləşən “N” saylı hərbi hissəsində tədbir keçirilmişdir.




Tədbirdə Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, FHN işçiləri Həmkarlar İttifaqının sədri Mehman İsmayılov, Fövqəladə Hallar Nazirliyi Mülki müdafiə qoşunları komandanının müavini-qərargah rəisi polkovnik Etibar İsmayılov, hərbi hissənin rəhbərliyi, zabit və əsgərlər iştirak edib.

Mərasim Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Bayram tədbirini giriş sözü ilə açan Fövqəladə Hallar Nazirliyi işçiləri Həmkarlar İttifaqının sədri Mehman İsmayılov ümummilli lider Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanına əsasən, 26 iyunun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan edildiyini bildirib. O, ölkəmizdə bu gün ordu quruculuğunun Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirildiyini qeyd edib.

Mehman İsmayılov Mülki Müdafiə Qoşunlarının silahlı qüvvələrimizdəki rolundan geniş bəhs edərək, onun müasir texnologiyalara malik möhkəm maddi-teniki bazası olduğunu diqqətə çatdırıb.



Sonra Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov çıxış edərək Azərbaycanda ordu quruculuğundan, bu sahədə ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərindən, Mülkü müdafiə qoşunlarının Azərbaycanın ordu sistemindəki rolundan geniş bəhs etmişdir. O, qeyd etmişdir ki, müstəqilliyin ilk illərində Azərbaycan çətin günlərini yaşayırdı və bunun nəticəsi idi ki, ölkə parçalanmağa doğru gedirdi. Məhz xalqın təkidi ilə yenidən hakimiyyətə gələn Heydər Əliyev Azərbaycanı ağrılı günlərdən çıxararaq firavan, müstəqilliyi möhkəmlənmiş, dünya ölkələri sırasında söz sahibi olan bir ölkəyə çevirmişdir. Onun sayəsində ordumuz yenidən qurulub və dünyanın ən güclü orduları sırasında öz yerini möhkəmləndirdi. Ümummilli liderimizin layiqli davamçısı, möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyev bu siyasəti mükəmməl şəkildə davam etdirir. Natiq vurğulamışdır ki, bizim istənilən an torpaqlarımızı düşməndən azad etməyə qadir güclü ordumuz var.

Tədbirdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev şəxsi heyəti bayram münasibətilə təbrik edib, onlara şərəfli vəzifələrində uğurlar arzulayıb.

Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunları Komandanının müavini—qərargah rəisi, polkovnik Etibar İsmayılov da əsgər və zabitləri 26 İyun—Silahlı Qüvvələr Günü münasibətilə təbrik edib.

Sonda xidmətdə fərqlənmiş bir qrup əsgər və zabitə qiymətli hədiyyələr təqdim olunub.

**«Qəbələ»**

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq iyunun 22-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Qəbələ rayonunda bölgə vətəndaşlarını qəbul edib.



Qəbuldan əvvəl Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev rayon icra hakimiyyətinin inzibati binasının foyesində ümummilli lider Heydər Əliyevin büstü önünə tər gül dəstələri qoyub, ulu öndərin əziz və parlaq xatirəsini ehtiramla yad ediblər.

Qəbələ Mədəniyyət Mərkəzində keçirilən qəbulda Oğuz, Şəki və Qəbələ rayonlarından olan sakinlərin müraciətlərinə baxılıb.

Vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, məscidlərin təmiri, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərin dini təyinatlı kitablarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib. Komitənin səlahiyyətlərinə aid olmayan məsələlərə dair müraciətlər isə aidiyyəti qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

**“Qəbələ”**

# ABŞ-ın Harvard Universitetinin nümayəndə heyəti Qəbələ rayonuna səfər etmişdir



***Azərbaycanı yaxından tanımaq, burada həyata keçirilən beynəlxalq layihələri, o cümlədən təhsil, səhiyyə, idman və turizm sahələri barədə məlumat əldə etmək üçün ölkəmizdə səfərdə olan ABŞ-ın Harvard Universitetinin bir qrup müəllimi və tələbələri Qəbələ rayonuna səfər etmişlər.***

Amerikalı qonaqlar səfər çərçivəsində Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevlə görüşmüşlər.

Görüş zamanı RİH başçısı qonaqlara rayonumuz haqqında geniş məlumat vermişdir.

Qeyd olunmuşdur ki, bu gün respublikamızda əldə edilən sosial-iqtisadi inkişafın bariz nümunəsini Qəbələ rayonunun timsalında aydın görmək olar.

Bildirilmişdir ki, burada yaradılan müasir infrastruktur, turizm və sağlamlıq kompleksləri bölgənin iqtisadi inkişafına müsbət təsir göstərməklə yanaşı, həm də Qəbələnin dünyanın mədəniyyət mərkəzlərindən birinə çevrilməsinə stimul vermişdir.

Sonra Harvard Univesitetinin nümayəndə heyəti rayonun təbiət mənzərələri, görməli yerləri, tarix-mədəniyyət abidələri və turizm sektoru ilə yaxından tanış olmuşlar.

Onlar qədimliklə-müasirliyin sintezi fonunda yenidən qurulmuş Qəbələ ilə tanışlıqdan böyük zövq aldıqlarını bildirərək, rayonumuzdan xoş təəssüratlarla ayrılmışlar.

**“Qəbələ”**

# Kolumbiyanın xarici işlər naziri Qəbələdə səfərdə olmuşdur

Kolumbiya Respublikasının xarici işlər naziri xanım Mariya Anxela Olqini tanışlıq məqsədilə Qəbələ rayonuna səfər edib.



Rayon icra hakimiyyətinin başçısı tərəfindən qəbul edilən qonağa Qəbələnin qədim tarixi, müasir inkişafı, füsunkar təbiəti və istehsal müəssisələrinin fəaliyyəti barədə məlumat verilib.

Daha sonra “Beltmann” Piano Fabriki, Qəbələ Konserv Zavodu və “Qəbələ-Qida Şəhərciyi” ilə tanış olan Kolumbiyalı qonaq rayonda sosial-iqtisadi inkişaf proqramları çərçivəsində həyata keçirilən müxtəlif layihələr və bütün sahələrdə nəzərə çarpan uğurlar barədə məlumatlandırılıb.

Həmçinin, rayonun turizm və kənd təsərrüfatı sahəsindəki potensial imkanları, son illər həyata keçirilən infrastruktur layihələri nəticəsində Qəbələyə səfər edən turistlərin sayının artım dinamikası haqqında məlumat verilib.

Kolumbiyalı nazir rayonumuza səfərindən məmnun olduğunu və xoş təəssüratlarla ayrıldığını bildirib.

**“Qəbələ”**